*Tahir Saleh*

# Dərbəndə gəl

(ŞERLƏR VƏ LİRİK POEMA)

DƏRBƏND – 1998

Tahir Saleh lirik şairdir. Onun narahat qəlbinin çırpıntıları oxucunu mənəvi saflığa, halallığa, Vətən torpağının qədrini bilməyə çağırır. Müəllif Dağıstan – Azərbaycan və digər Qafqaz xalqlarrının dostluğunu tərənnüm edir, yeri gələndə zamanın insana gətirdiyi bəlaları da qələmə alır.

Tahir Saleh Dərbənddə fəaliyyət göstərən «Gülüstan» ədəbi birliyinin sədri və eyni adlı qəzetin təsisçisidir.

O, Dağıstan respublikasının əməkdar mədəniyyət işçisidir, Rusiya Jurnalistlər İttifaqının üzvüdür. «Qafqaz» jurnalının Dağıstan üzrə rəhbəridir. Azər. TAC–ın, RİA-nın və Türkiyə MTV-nin təmsilçisidir.«Dərbəndə gəl» kitabı şairin oxucularla ilk görüşüdür.

# Hər daşın tarixdən bir nişanədir...

## NARINQALA

Qoca tarix bizi salanda qana
Dərbənd ocağinda bir od qaladı.
Anatək yer verdi qoynunda ona,
Adı da qəribə - Narınqaladı!

Uca dağ döşündə yerləşən qala
Azğın düşmənlərə sinə gəribdi.
Neçə əsrləri salsa da yola,
İndi tək-tənhadı, indi qəribdi!

Şə`ninə nəğmələr yazmaqçün bir
gün
Min yol boşalasan, dolasan gərək.
Onun şöhrətini artırmaq üçün
Divarının daşı olasan gərək...

1977

# DƏRBƏND GÖZƏLİ

Gəzmişəm aranı, gəzmişəm dağı,
Belə üz, belə göz-qaş görməmişəm.
Min cəfa çəkmişəm eşqin yolunda,
Gözümdə bu qədər yaş görməmişəm.

Gözəllər yolunda düşmüşəm oda,
Qızıl anlarımı vermişəm bada.
Hələ bu yaşacan mən bu dünyada
Sənintək ürəyi daş görməmişəm.

Keçir gözlərimdən qəm pərdə-pərdə,
Ürəyim nisgilli, halim pəjmürdə,
Bir qəfil bəlaya, nagahan dərdə
Tahiri beləcə tuş görməmişəm...

## SƏNİ MİN YAŞA, SƏİD!

**«Xalqlar dostluğu» ordeni alması münasibətilə Dərbənd rayon müdiriyyətinin başçısı Səid Camal oğlu Qurbanova ithaf edirəm.**

Açsın güllər, çiçəklər,
Arzulansın ürəklər.
Çin olsun saf diləklər,
Səni min yaşa, Səid!

Xoş keçsin aylar, illər,
Şöhrətlənsin nəsillər,
Bircə söz desin dillər:
-Səni min yaşa, Səid!

Çiçəklənsin ağaclar,
Yaşıllaşsın yamaclar,
Nəğmə desin turaclar,
Səni min yaşa, Səid!

Durur yolun mabədi,
Qəlbin – inam mə`bədi,
Dərya ömrü əbədi,
O qədər də sən yaşa!

Bu yurdda hər qarış yer
Möcüzədir, sirdir, sir.
Narınqala fəxrindir,
O qədər də sən yaşa!

Gün batanda ay çıxar,
Göydə ulduzlar parlar.
Nə qədər ki, onlar var
O qədər də sən yaşa!

Sən sevirsən Vətəni.
Çölü, düzü, çəməni.
Ellər də sevir səni,
Bu eşq ilə yaşa sən!

Dağlar sənin vüqarın,
Əzəmətin, ilqarın.
Əbədidir baharın,
Bu eşq ilə yaşa sən!

Nə qədər ki, həyat var,
Uçmağa qol-qanad var,
Yer-göy var, kainat var,
Bu eşq ilə yaşa sən!

Neçə-neçə el-oba,
Oğul-qız, ata-baba
Səni salaraq yada,
Deyirlər: - Səid, yaşa!

Ordenli sinən sənin,
Günəşisən Vətənin,
Təbrikimdir bu mənim:
Səni görüm min yaşa,
Yaşa, Səid, sən yaşa!

Dərbənd.
мау, 1994

# DƏRBƏNDƏ GƏL

Bu yerin torpağı, hər daşı gözəl,
Sevən ürəklərin sirdaşı gözəl,
Nazlı pərilərin göz-qaşı gözəl,
Sevdalı qəlbinlə kəməndə gəl sən,
Gözəllər məskəni Dərbəndə gəl sən!

Ötüb keç düzləri, biçənəkləri,
Çıxsın pişvazına tər çiçəkləri.
Güllərin al, sarı, ağ ləçəkləri
Səhərin şehində çiməndə gəl sən,
Məhəbbət diyarı Dərbəndə gəl sən!

Bu yurdda bir solmaz gülün var sənin,
Şəhdini hifz edən dilin var sənin,
Yolunu gözləyən elin var sənin,
Bir gözəl şəhərə, yüz kəndə gəl
sən,
Günəşdən nur əmən Dərbəndə gəl sən!

1994

## HƏQİQƏT

**Şair dostum Nəriman Ağasiyevin xatirəsinə**

Bilir dağlar-daşlar, bilir çiçəklər,
Bilir göy çəmənlər, şən kəpənəklər,
Bilir qəmli gözlər, dərdli ürəklər
Bir dəli tufanı yatdı bu yurdun!

Bu qəfil gedişin yandırdı bizi,
Yayın istisində dondurdu bizi,
Bir cansız heykələ döndərdi bizi,
Bütün oğlu-qızı matdı bu yurdun!

Hər şəhər, hər oba, hər kənd bilir ki,
Hər acı göz yaşı tökən bilir ki,
Dağıstan bilir ki, Dərbənd bilir ki,
Bir ovuc torpaği artdı bu yurdun!..

1993

# FƏXRƏDDİN QƏRİBSƏSƏ

İlk arzum budur sənə: yüz il yaşa,
Varın dövlətin olsun, aşıb-daşa,
Ömrünü dostlarla vurasan başa,
Təmiz qəlbin, sərvətin var, Qəribsəs!

Bilirəm, çalışırsan hər zaman sən,
Dostların ürəyini dinləyənsən
Hamı deyir sənə, min alqış, əhsən,
Min gərəkli ocağın var, Qəribsəs!

Heç vaxt durmadın yaxın, üz edənə,
Yolda, kəsəkdə qol-boyun gedənə,
Çöllərdə qanqal təki, tək bitənə,
Qızılgül tək şöhrətin var, Qəribsəs!

Xalqın yolunda çəkirsən cəfanı,
Zəhmətdə tapmısan şöhrəti, şanı,
Hər şirin sözündə var can dərmanı,
Əməlində ürvətin var, Qəribsəs!

Yaxşılıq gördüm, dost kimi əlində,
Şirinlik duydum, kəlməndə, dilində,
Süfrənə qismət olub, dost gələndə,
Halalca duz çörəyin var, Qəribsəs!

Yaxşı insanla sən düz dolanırsan,
Boşboğaza deyirsən: sən yalansan,
Bir yersiz dirəksən, yersiz palansan,
Mərdliyin var, qeyrətin var, Qəribsəs!

Dostun Tahir də, daim çəkər cəfa,
Çünki, millətin oğlu görsün səfa.
Yaşasın ömür boyu qəlbdə vəfa,
Vətən eşqli həsrətin var, Qəribsəs!

avqust, 1997-ci il.

# QARABAĞ

Qopub taleyində qasırğa, tufan,
Düşmən göz açmağa verməyir aman.
Dönüb cəhənnəmə bu cənnətməkan,
Alıbdı köksündən min bir yara, bax,
İnləyir, göz yaşı tökür Qarabağ!

Daşından fışqıran bulaq yaralı,
Gül-çiçək yaralı, yarpaq yaralı,
Dudmanı xaraba, ocaq yaralı...
Didərgin anaya, dosta, yara bax,
İnləyir, göz yaşı tökür Qarabağ!

Yanır Üzeyirin bağrının başı,
Qocaman Vaqifin xəyalı çaşıb.
Hanı Natəvanın könül sirdaşı?
Bülbüllər yurdunda qalan sara bax.
İnləyir, göz yaşı tökür Qarabağ!

A qardaş, a bacı, ay ana, ay dost,
Gedirik bu yolla hayana, ay dost?
Bələnib yurdumuz al qana, ay dost,
Bu dərdə, bəlaya yoxmu çarə, bax,
Ağlayır, göz yaşi tökür Qarabağ...

1993

# O MÜDHİŞ GECƏDƏN SONRA...

«Bakının dərdi var, Bakı xəstədir...»
Dünyanın qulaği yenə səsdədir,
«Dostlar» bu torpağa zülüm gətirib,
Bu yurdda əbədi qalmağa gəlib,
Təzə qəbristanlıq saimağa gəlib!

Meydan olunubdu qanına qəltan,
Dönüb məzarlığa qədim xiyaban...
«Güllələr gecənin bağrını yarır...»
Nər qurșun bir yeni qurban aparır...
Düyünlü yumruqlar yenə havada!
Qürubla dan yeri yenə davada!..

Xəzər așıb-dașır, basır sahili,
Köpürən sulardır danıșan dili!
Baxıram dənizə yenə bu səhər,
Axir dalğalardan qəlbimə ișıq.
Coșmağı bizdənmi öyrənib Xəzər,
Yoxsa biz Xəzərtək șahə qalxmıșıq?!

Yanvar, 1990.

# DUYA BİLƏYDİM

Bu varlı həyatda, xəsis həyatda
Kaş bir içim sudan doya biləydim,
Qol açıb süzəydim toyda-büsatda,
Başlara min çələng qoya biləydim,

Biləydim dostların əziz xətrini,
Yazaydım şerimin mən şah sətrini,
Qərib çiçəklərin iyi-ətrini
Araz sularında duya biləydim.

Səhv edib, ayağa bəzən baş dedim,
Qızıl torpağıma kəsək, daş dedim,
Hər yoldan ötənə vətəndaş dedım,
Kaş kimdi əjdadı-soyu biləydim.

Qoyun cildli qurdu tanımamışam,
Min bir yara vurdu, tanımamışam.
Bu eli, bu yurdu tanımamışam,
Bir gün günahımı yuya biləydim...

Quba, 1990.

# SAĞLIQ

Süfrəmi bəzəyən «Ağ süfrə» oldu,
Məzəsi yanında, qədəhlər doldu,
Bir gözəl, xudmani məclis quruldu...
Eşq olsun deyirəm Azərbaycana!

Dəmir qapı Dərbənd – el əmanəti,
Dünyalar qədərdir qədri-qiyməti.
Dost edib bir şəhər neçə milləti,
Eşq olsun deyirəm mən Dağistana!

Hər yerdə hökmran olarsa dinclik,
Taxt-taclara yol tapmasa biclik,
Haqq-ədalətə baş əysə gənclik,
Eşq olsun deyirəm bütün cahana!..

1986

# ANA ÖMRÜ

Bütün ömrü boyu işdədir əli,
Ana – başdan-başa zəhmət heykəli!
Namusu, qeyrəti məhəbbətdəndir,
Qarğışı, nifrəti məhəbbətdəndir.
Əvvəl bir ürəyin sonası olur,
Sonra anaların anası olur...
Yandırır qəlbini bir od, bir atəş,
Onunçün beşikdən doğulur günəş!
Gəzir gözlərində bir cüt şamla o,
Əridir ömrünü damla-damla o!
İşidir bir nəsli çatdığı ocaq,
Özünə bir şölə qalsa, bəsidir,
Bu Yeri orbitdə saxlayan ancaq
Ana sevgisinin cazibəsidir!..

1994

# ANAM

Bizə həsr elədi bahar ömrünü,
Payızı adladı, qışına çatdı.
Vurmadıq dərdin də heç vaxt üstünü,
Bu sayaq nənəlik yaşına çatdı,
Payızı adladı qışına çatdı.

Oğlan nəvələrin düzüb yanına,
Bir də qız nəvəsi istəyir anam.
Yediyi-içdiyi nuş olmur ona,
Nəyisə, nəyisə gözləyir anam,
Bir də qız nəvəsi istəyir anam.

Qayğıları aşıb-daşır anbaan,
Bilmir dinclik nədir, rahatliq nədir.
Nə qədər səbrli olarmış insan,
Ondakı bu dözüm lap möcüzədir,
Bilmir dinclik nədir, rahatlıq nədir.

Bizə həsr elədi bahar ömrünü,
Payızı adladı, qışına, çatdı.
Vurmadıq dərdin də heç vaxt üstünü,
Bu sayaq nənəlik yaşına çatdı,
Payızı adladı, qışına çatdı…

Noyabr, 1992.

# ANAMIN ARZUSU

Bir payız səhəri güldü dan yeri,
Yenə də çox erkən durmuşdu anam.
Qırmızı günəşin al şəfəqləri
Dağlara-daşlara yaxmışdı xına.

Al səhər xoş hava özü də sirdi,
Anamın gözləri qəmgindi fəqət.
Onun ürəyini aça bilmirdi
Hətta əlvan donlu qızıl təbiət.

Vardı ürəyində gizli bir istək,
Bu istək çörəyi, ruzusu idi.
Sonbeşik Telmanın toyunu görmək
Anamın ən böyük arzusu idi.

Gözaltı etmişdi qonşu qızını,
Qız nə qız, sularda nazlanan sona.
Min bir bəhanəylə görəndə onu
Hətta «gəlinimsən» deyərdi ona.

Ancaq «adaxlının» vecinə deyil,
Getmişdi, uzaqda-qürbətdə idi.
O vaxtdan keçmişdi, düz bəlkə də, beş il.
Anam gecə-gündüz möhnətdə idi.

Odur ki, kölgətək gəzirdi ana,
Kaş oğlu bu dərdi bir qana idi.
Anamın gözündə hamı bir yana,
Qürbətdəki oğlu bir yana idi!

Uşaqlar bir xəta çıxarsa, o gün
Anamın yanına tez qaçardılar:
Özünü təmizə çıxarmaq üçün
Telmanın canına and içərdilər...

Beləcə vaxt ötdü, əridi hicran,
Axır gəlib çıxdı kiçik qardaşım.
O gün mən anama baxdığım zaman
Axdı gözlərimdən isti göz yaşım...

Xəbər gətirənə muştuluq verdik,
Gördük ki, qonşular hamı gəlibdir.
Ortada xudmani bir süfrə sərdik,
Nemətlər yan-yana düzüldü bir-bir.

Sinəyə sığmırdı bu sevincimiz,
Bir uzun həsrətdən öc alınırdı.
Bir süfrə başına yığışsaq da biz,
Sanki evimizdə toy çalınırdı...

1991

# NƏ VAXTDIR Kİ...

**Bakı, Sumqayıt, Dərbənd və «Ulduz» jurnalındakı dostlarlma**

Nə vaxtdır ki, olmusunuz
Mənə doğma, mənə yaxın.
Məhrəmanə hisslər keçir
Ürəyimdən axın-axın,

Bu insafsız, zalım fələk
İmtahana çəkib bizi.
Zamanın sərt rüzgarları
Üşütməsin qəlbinizi!

Hər gecənin sonu – gündüz,
Hər qürubun axırı – dan.
Ulduzların işığıdır
Zülmətləri nurlandıran!

Nur saçırsa haqdan bir şam
Sönməməsi deyildir sirr.
O şamın bir zərrəsi də
Dağistanda şölələnir...

1977

# İSTƏK
## Qubalı dostlarıma

Güc gələndə qəribliyin möhnəti
Qərib ağlar, obasını arzular.
Ərşə qalxar şikayəti, töhməti,
Atasını, babasını arzular.

Yanar qəlbi, söndürəni tapılmaz,
Gözlər, salam göndərəni tapılmaz,
Məclislərdə dindirəni tapılmaz,
Qohum-qardaş sədasını arzular.

Necə sübut eləyəsən nadana –
Qərib üçün Vətən dönüb dərmana?
Qoca qartal enibdisə arana,
Qıy çəkib, sal qayasını arzular!

Qərib gəzər daim qəlbi yaralı,
Görərsən ki, günü-gündən saralı.
Nər düşübsə qatarından aralı,
Hey bozlayıb, mayasını arzular.

Vətən eşqi qanındadır Tahirin,
Ocaq odu canındadır Tahirin,
Əzizləri yanındadır Tahirin,
Könlü yenə Qubasını arzular...

Dərbənd, 1990

# BİR QIŞ GÜNÜ

Axşamdan ağrıyır nədənsə başım,
Gözlərim zillənib bilmirəm hara.
Sinəmdə çırpınan qəlbim – sirdaşım
Elə bil anbaan çəkilir dara.

Uzun qış gecəsi, qar, soyuq, şaxta...
Ürək darıxdırır çılpaq ağaclar.
Sükut padşah kimi oturub taxtda,
Yoxsa bu şahlığın bir mənası var?

Saçlarım qar rəngdə... ağarıb dən-dən,
Ömrümün qışından nişandı bəlkə?
Kim bilir, könlümü belə titrədən
Sükutdan sonrakı tufandı bəlkə?..

# OLMAZ

İdrak sahibləri az danışandı,
Ariflər yanında lal olmaz, olmaz!
Nadanlar nə bilir sözün qədrini,
Zəhər tuluğunda bal olmaz, olmaz!

İnsan vicdanını sahibi sansa,
Ömürlük xoşbəxtdir ona inansa.
Gözəl bir baxçanın bağbanısansa,
Dərdiyin meyvələr kal olmaz, olmaz!

Yaxşılıq tanımır nə sərhəd, nə sədd,
Allah bəndəsiylə olma yaman, bəd.
Kimin ki evini yıxmayıb həsəd,
Onun ürəyində xal olmaz, olmaz!

Alma, nar gözləmə bostanda tağdan,
Ha bəslə, törəməz dayça ulaqdan.
Sandıqda saxlanan kəfənlik ağdan
Başa örtüləsi şal olmaz, olmaz!

Ağılsız adamlar güc verər əngə,
Namərdlər yanında dönər pələngə.
Onlarla hər dəfə çıxmaqçün cəngə,
Əlbəttə, Tahirdə hai olmaz, olmaz!

1986

# YOX

Bağrım başı parə-parə,
Bu dərdimi biləmim yox.
Kimə deyim mən biçarə?-
Heç qayğıma qalanım yox.

Yarım gedib, itib gözdən,
Bezmişəm ta acı sözdən,
Nazla durub səhər tezdən,
Bir üzümə güləmim yox.

Bir aşiqəm, sinəm dağlı,
Eldən ayrı, elə bağlı.
Qara qulam, qolubağlı,
Satanım yox, alanım yox.

Zınqırovsuz karvan gedir,
Başı üstə duman gedir,
Ömrüm mənim qurban gedir,
Fəqət yola salanım yox.

Tahir yanır, pərvanədi,
Yarsız ömrü viranədi.
Göz yaşlarım dürdanədi,
Rəhmə gəlib siləmim yox...

1988

# ARASINDA

Bilmirəm fələkdə bu nə sirdi, sirr-
Zalımdan yan keçir, məzlumu gəzir.
Əzəldən belədir: əcəl müntəzir
Dayanıb qaş ilə göz arasında.

Fərhad sonaladı neçə pərini,
Fəqət bəyənmədi o heç birini.
Könlünə dost bildi yalnız Şirini
Min bir naz-qəmzəli qız arasında.

Pak, təmiz eşqindən o, ilham aldı,
Başı Bisütuntək göyə ucaldı.
Axır məhəbbəti sərgərdan qaldı
Çapdığı dağ ilə düz arasında!

Taleyin insanla vardır qərəzi,
Alır qüvvətini, verir mərəzi.
Ortaya gələndə mizan-tərəzi,
Qalırsan əyriylə düz arasında.

Şikayət eyləmə,Tahir, heç zaman,
Yalnız öz gücünə həyatda inan.
Görmürsən bu yerin əşrəfi insan
Çırpınır qış ilə yaz arasında?!

1987

# YAŞIM ÖTSƏ DƏ...

Odlu illərimi mən yola saldım,
Hələ də qədrini bilə bilmirəm.
İlahi, nə idi günahım mənim,
Gözümün yaşını silə bilmirəm.

Atını dördnala səyirdən eşqim,
Min gözəl dalınca yüyürən eşqim,
Ləpələnən eşqim, köpürən eşqim
Nə üçün düşübdü dilə, bilmirəm.

İtirdim gülümü mən lap heç nədən,
Kimsəsiz qəribəm, dərd-qəmim vətən.
Zar-zar ağlamağı bacarsam da mən,
Bircə yol ürəkdən gülə bilmirəm.

Dəryalar dibində gövhərimdi o,
Sevinc qiyafəli qəhərimdi o,
Mənim dan yerimdi, səhərimdi o,
Bəlkə, buna görə... ölə bilmirəm...

1985

# GÖZÜM QALDI

Vədə verdi bir yar mənə,
Çıxıb getdi, sözüm qaldı.
Al yanaqda, al sinədə,
Qara xalda gözüm qaldı.

Günəş söndü səhər çağı,
Viran oldu könül bağı,
Qaraldı eşqin ocağı,
Ürəyimdə gözüm qaldı.

Alışıram bu həsrətdən,
Öz-özümü məzəmmətdən.
Bir atüstü məhəbbətdə.
Bir ömürlük dözüm qaldı...

1982

# SAÇLARIM AĞARIR...

Saçlarım ağarır, ağarır yaman.
Mənim saçlarımı zaman ağartdı.
Neçə ağır sınaq, ağır imtahan
Mənim saçlarımı yaman ağartdı!

Haqq deyə dolaşdım dağı, düzü mən,
Əridə bilmədim qarı, buzu mən,
İtirdim  çox yerdə yolu-rizi mən,
Mənim saçlarımı duman ağartdı.

Yaxşılıq eylədim, yamana döndü,
Dostlarım hərəsi bir yana döndü.
Həqiqət sandığım gümana döndü,
Mənim saçlarımı güman ağartdı!

Yağ var ki, qiymətdə süzməyə dəyməz,
Satana heç ağız büzməyə dəyməz,
Qanmazdan, əlbəttə, küsməyə dəyməz,
Mənim saçlarımı qanan ağartdı!

Qarğışdan beşbetər salam görmüşəm,
Ağadan beşbetər qulam görmüşəm,
Heyvandan beşbetər adam görmeşəm,
Mənim saçlarımı insan agartdı!..

1994

# BAŞA DÜŞƏNDƏ

Tanıyır yaxını, tanıyır yadı
İnsan oğlu bərkə-boşa düşəndə,
Göylərə ucalır bəlalı başı
Bir kimsə dərdini başa düşəndə!

Arayıb-axtarıb həmdəm gəzirsən,
Yaralı qəlbinə məlhəm gəzirsən
Bir doğma gəzirsən, məhrəm gəzirsən
Ömrün yazdan keçib, qışa düşəndə.

Bəzən unudursan insanlığı da,
Lap kişiliyi də, qadınlığı da,
Qəbul eləyirsən nadanlığı da
Mərcan gözlü zərin qoşa düşəndə!

Dərdli gözlərində şimşəklər çaxır,
Qəlbindən sellənib qara qan axır,
Düz yeddi arxanı yandırıb-yaxır
Məlun tayfabazlıq işə düşəndə!

Tahir, dost yolunda candan keçmisən,
Şərbət əvəzinə zəhər içmisən,
Heyf, həqiqəti başa düşmüsən
Dən saqqala deyil, qaşa düşəndə...

1994

## QƏZƏL

Söz qoşub gör neçə şair deyibən «can»
şəraba,
Don biçib çünki fələk qırmızı qandan
şəraba.

Rəngi al, ləzzəti tam, zərrəsi nur
çeşməsidir,
Dadı olmaz əlini vurmasa canan
şəraba!

Səni qorxutmasın, ey dost, cəhalət
əhli,
Nə olar nifrət edir bir neçə nadan
şəraba?

Həm sözün, həm də şərab məclisinin öz
yeri var,
Dəlisən şamü səhər meylini salsan
şəraba!

Bəsdi Tahir, bu qədər vəsf elədin al
şərabı,
Hər nəyin varsa, keçib düvrü zamandan
şəraba...

1987

# GƏRƏK DEYİL DƏRMAN SƏNƏ

Dərd üstünə qoşun çəksə,
Gərək deyil dərman sənə.
Kifayətdir baxsın həkim
Bircə yol mehriban sənə.

Təbəssümlü üzü ilə,
Dan şəfəqli gözü ilə,
Qəlbə məlhəm sözü ilə
Bəxşiş verir yüz can sənə.

Zülmət gedir, şəfqət gəlir,
Dizlərinə taqət gəlir,
Ürəyinə qüvvət gəlir,
Sanki vurub al qan sənə!

Tahir, bunu bilsin hamı-
Dərd əyəmməz hər adamı,
Bagışlayıb bu inamı
Ağ xələtli insan sənə!

1985

# BİLMƏRƏM

Özgə ağrıları göynədər məni,
Mənsə öz agrımı duya bilmərəm.
Mürüvvət, ədalət deyildir yeni,
Qəddarlıq donunu geyə bilmərəm.

Bəzən güc gəlsə də dərdim-məlalım,
Nikbinlik taxtından enmir xəyalım,
Vətən səmasında parlar hilalım,
Hər ötərgi səsə uya bilmərəm.

Qüdrət də məndədir, güc də məndədir,
Yağılar pərt olur, şərməndə gedir,
Müxənnət nə bilir halallıq nədir,
Haramı halaldan saya bilmərəm.

Qoy bilsin ilqarı yalan rəqibim,
Sərvətimə meyl salan rəqibim,
Torpağımda gözü olan rəqibim,
Bu hayıfı onda qoya bilmərəm!

Noyabr, 1992

# MƏNİM EŞQİM

Mənim eşqim – dəcəl uşaq,
Sanır dünyanı oyuncaq,
Qəfil yeldir, əsir, ancaq
Hələ üzümü yandırır.

Mənim eşqim maqnit təki
Nə görsə özünə çəkir.
Bu sevdalı qəlbimdəki
Səbri, dözümü yandırır.

Mənim eşqim zamansızdır,
Kimsəsizdir, ünvansızdır.
Qəzəblidir, amansızdır –
Təkcə özümü yandırır...

1976

# TƏZƏ BƏLA

**Dağıstanda məskunlaşmış soydaşlarımızın bəziləri rəsmi sənədlərdə milliyətini dəyişdirir, ana dilində danışmağı özlərinə ar bilirlər.**
**Ar olsun onlara!**

Bir təzə bəladan çatiayır başım,
Çətinə düşmüşəm, dara düşmüşəm.
Adını «unudub» neçə soydaşım,
Özüm də bilmirəm hara düşmüşəm!

Yad dildə, şivədə ötürlər dil-dil,
Yoxsa tanıdığım adamlar deyil?
Baxıram hayana, allah, elə bil
Əcnəbi ləhcəli bara düşmüşəm!

Dərdim doğma elin təəssübüdür,
Şirin-şəkər dilin təəssübüdür,
Dil yox, qönçə gülün təəssübüdür,
Kül altda gizlənmiş qora düşmüşəm!

İgid Koroğlunun hünəri hanı?
Əyilməz Babəkin sipəri hanı?
Bu günün qəhrəman əsgəri hanı?..
Qartallı zirvədən tara düşmüşəm!

Hələ bəlli deyil qırımım yada,
Qoçuluq edirik şirin röyada,
Tahir, yetər üzdün dərin dəryada,
Balıq sevdasıyla tora düşmüşəm...

Iyul,1994

# İNCİMƏRƏM

Günahımı üzümə de,
İnciмərəm səndən dostum.
Nə deyirsən, düzünü de,
İnciмərəm səndən, dostum.

Səhv danışsam, dilimdən tut,
Haram yesəm, əlimdən tut –
Sağımdan tut, solumdan tut,
İnciмərəm səndən, dostum!

İnsana baş ayaq gərək,
Arxa gərək, dayaq gərək,
Daim olaq oyaq gərək,
İnciмərəm səndən, dostum.

Zəmanə bəd gətiribdi,
Müxənnəslər yetiribdi.
Çox dost dostu itiribdi,
İnciмərəm səndən, dostum.

Tahir deyər axşam-səhər:
Dost dostun dadına yetər.
İncisən də məndən əgər,
İnciмərəm səndən, dostum.

## FRAGMENTLƏR

Cüt qoşub yer sürməyən
arpaya xurma deyər,
Ox atıb ov vurmayan
qarğaya durna deyər!

Haramdırsa toxumun,
əkmə, ziyan görərsən,
Becərərsən sən onu,
sonra tikan dərərsən...

Yersiz deyilən hər söz
oxdur, dəyir nişana,
Həm özgəni, həm səni
qərq edir nahaq qana...

Gey nimdaş paltarını,
istəmə yaddan xara,
Özgənin libasında
at bənzəyir bir xərə...

Düz yolla getsən əgər,
tez yetişərsən kəndə,
Əyri yola düşənin
boynu keçər kəməndə...

Fələk dəyirmançıdı,

dünya isə dəyirman,
Təvəkkülə öyrəşən
tapmaz dərdinə dərman...

Üzümü «öldürdülər»,
mey şəklində dirildi,
Meyin «diriltdikləri»
di gəl ki ölü idi...

Nadanları danlamaq,
şəksiz, əbəsdir, əbəs –
Zəncirin ağırlığın
heç vaxt divanə bilməz...

Yalan söz – sarı saman,
yel – rüzgarda dayanmaz,
Doğru söz – zümrüd quşu,
odda-alovda yanmaz...

Söz var – xalxın içində,
söz var – xılxın içində,
Söz de, sözün olmasın
təki xıltın içində...

# DUYĞU YARPAQLARI

Hər sevincim, dərdi-sərim
Ürəyimin öz səsidir.
Aglı-qaralı günlərim
Taleyimin töhfəsidir.

Gedirəmsə hansı səmtə,
Görürəm mən pislik, kələk.
Yerlə-göylə əlləşsəm də,
Zülmündən əl çəkmir fələk.

Bəxtimə qəm yazılıbsa,
Qismətimdi, pozammaram.
Dərdim yoxsa, azalıbsa,
Bir misra da yazammaram...

Göy dənizin sahilində
Dayanmışam tək-tənha mən.
Nə olubsa it ilində,
Gəlib keçir göz önümdən.

Bura qoşa gələrdik biz,
Danışardıq, gülərdik biz,
Dərdimizi bilərdik biz,
Yaşayardıq, ölərdik biz...

Günəş baxır, sular gülür,
Gələn yoxdur, gedən yoxdur,
Bircə göy dalğalar bilir
Günahım savabdan çoxdur...

Mən bir həsrət ağacıyam
Ilk məhəbbət gülşənində.
Bir təsəlli möhtacıyam
İlk məhəbbət gülşənində,

Ayım qalıb, günüm qalıb,
Səsim qalıb, ünüm qalıb,
Ruhum qalıb, canım qalıb
İlk məhəbbət gülşənində.

Dərəmmədim çiçəyimi,
Al qan etdim ürəyimi,
Itirdim öz göyçəyimi
İlk məhəbbət gülşənində...

Sənin adın dilimdədir,
Dilimi üzsələr yeydi.
Arxanca mən əl eləsəm,
Əlimi kəssələr yeydi.

Qıydın sevdiyin yara sən,
Çəkdin min dəfə dara sən.
İnnən belə dost arasam,
Biganə nəsnələr yeydi!

Saf ürəkdə sevgi ki var,
Bir yol açar, bir yol solar.
Torpaq altda qarışqalar
Bağrımı yesələr yeydi...

Üz tutmuşam sənə, tanrı,
Qədərindən saxla məni.
Qohum-qardaş, dost qəlbinin
Kədərindən saxla məni.

Gözün sildiyim adamin,
Deyib-güldüyüm adamın,
Yaxın bildiyim adamin
Xətərindən saxla məni!

Keçib günlər, ötüb yaşım,
Köçün sürür yar-yoldaşım,
Çox bəlalar şəkib başım,
Betərindən saxla məni...

Qadanı alım dedim,
Başına dönüm dedim,
Gözünə qurban olsun
Bu şirin canım dedim.

Ruh dedim, ürək dedim,
Dan dedim, səhər dedim,
Yadımda deyil ona
Daha mən nələr dedim...

Dinmədi... çıxıb getdi,
Özümü nahaq üzdüm.
Sevsəydi... bu sözləri
Mən ona deyəmməzdim...

Səni sevəndən bəri
Adın düşmür dilimdən.
Allah məni saxlasın
Leysanımdan, selimdən.

Ayrı düşsəm ahumdan,
Dağ əriyər ahımdan.
Keçərsən günahımdan
Xəta çıxsa əlimdən.

Eşqim – uca asiman,
Dərdim – dalğalı ümman!
Qorxuram ayrılıqdan,
Bir də qəfil ölümdən.

1994

# DÖRDLÜKLƏR

Mal-dövlət dəlisi çoxdur dünyada,
Şöhrət sevən qəlbə oxdur dünyada.
Ey eşq atəşində qovrulan insan,
Məhəbbət dəlisi yoxdur dünyada...

Etibar etsələr sənə əmanət,
Saxla, heç vaxt ona etmə xəyanət.
Gəlirik, gedirik... soruşan gərək:
Niyə ömrümüzə yoxdu zəmanət?

Göylərin sehridir məni lal edən,
Yerlərin seyridir məni lal edən.
Nə olsun danışmaq növbəsi çatıb,
Gözlərin mehridir məni lal edən...

Kürsü xatirinə səs almışıq biz,
Hər nə almışıqsa, tərs almışıq biz,
Bicliyi, kələyi kim öyrədibdi?-
Zaman müəllimdən dərs almışıq biz...

Görürəm od tutub bazar, neyləyim,
Çıxıbdı min cürə azar, neyləyim?
Gedirəm həkimə, əlac tapılmır,
Olmuşam canımdan bezar, neyləyim?..

Xəyyamdan çox içmək istəyən insan,
Demə şer yazmaq asandır, asan,
Get iç, küpünə gir, dirilsən əgər,
İnşallah, Xəyyamdan yaxşı yazarsan...

İlahi qüdrətdən yaranıb varlıq,
Onu qoruyammaz padşahlıq, çarlıq.
Yeri nizamlayan, saxlayan qüvvə
Biri yaxşılıqdır, biri halallıq...

1994

# DƏRBƏND

## (Lirik poema)

Bir yanın Xəzərdir, bir yanın dağlar,
Cənnətə döndərib qoynunu bağlar.
Sən mavi sulardan çıxan pərisən,
Dünyanın ən qədim, gənc şəhərisən!
Hər daşın tarixdən bir yadigardır,
Onda babaların nişanı vardır.
Al günəş rəngini səndən alıbdı,
Xəzər ahəngini səndən alıbdı!
Səndən bir töhfədir sevgi, məhəbbət,
Sənə ana deyir gör neçə millət!
Gözəldir, əlvandır dillərin xoru,
Şərəfdir hər kəsə milli qüruru!
Yüz min övladın var, ey əziz ana,
Əsl yaraşıqsan sən Dağıstana!
Kimin ki güzarı Dərbəndə düşür,
Gözəllər içində o, bəndə düşür!
Hamısı ağbəniz, sarışın, əsmər,
Ürəyində sevda, gözündə səhər!
Hərəsi bir inci, bir dürdanədir,
Yerişi, baxışı lap şahanədir.
Saç qara, göz qara, sinə dağ qarı,
Dillərdə əzbərdir əhdi-ilqarı!
Alagözlülərin özü şirindir,
Söhbəti şirindir, sözü şirindir.

Əsmər yanaqlarda günəşin əksi,
Əridir qəldləri odlu nəfəsi!..
İgid oğulların qoçaq, cürətli,
Hünər meydanında Şamil ürəkli!-
Ulu əjdadların ruhu, xəyalı,
Hər biri Koroğlu, bir dağ qartalı!
Ağzı dualıdır qoca nənələr,
Veclərinə deyil illər, sənələr!
Dağlardan-düzlərdən keçibdi onlar,
Büllur bulaqlardan içibdi onlar.
Qılınc oynadıblar, ox atıbdılar,
Bir il yox, on il yox, çox atıbdılar!
O gözəl gəlinlər, gözəl sonalar
Yarağa dəyişib bütün varını.
«Sərkərdə analar, igid analar
Yəhərdə doğubdu oğullarını!..».

***

Bədgüman Daradan üzü bu yana
Çox hücum olunub mərd Dağıstana!
Fatehlər yanında olmusan sipər,
Sənə Dəmir qapı – Dərbənd deyiblər!
Burdan neçə azğın, başkəsən keçib.
Mərd  övladlarının qanını içib!
Tamam vəhşiləşib, lap qudurublar.
İnsan kəlləsindən qala qurublar!
Sonra yəhərləyib kəhər atları,
Sürüb aparıblar istedadları!..

Beləcə vaxt ötüb tarix qocalıb,
Nəsillər düşməndən qalxıb öc alıb!
Bu yurdda, bu eldə yüz şahın, çarın –
Cənublu-şimallı qəsbkarların
Beli sındırılıb, burnu ovulub,
Quldurların külü göyə sovrulub!
Heç kim qıymayıbdı canına hədər,
Bütün dağlıların şeyxinə qədər!..

***

Qocaman tarixi varaqladıqca,
Nəslimi, soyumu soraqladıqca
Mən həm qəmlənirəm, həm sevinirəm,
Canlanır gözümdə yeni bir aləm.
Elə bir aləm ki, asimanında,
Ən nurlu, işıqlı kəhkəşanında
«Qırxlar qəbristanı», Narınqala var –
Biri el hünəri, biri iftixar!
Yüz dəfə baxmışam mən bu qalaya,
Qala sinə gərib min bir bəlaya!
Burdan ox atıblar saysız-qədərsiz,
Hər daşda, divarda min nişanə, iz!
Burda mancanaqlar qalxıb-enibdi,
Düşmənin başına od ələnibdi!
Burda əlbəyaxa döyüşlər olub,
Qarğışlar-nifrinlər, söyüşlər olub!
Burda kişnərtidən tutulub qulaq,
Qılınclar toqquşub – gün kimi parlaq!

Dəlisov başlara gürzlər enibdi,
Qalxanlar, nizələr çiliklənibdi!
Burda neçə insan ömrü solubdu,
Qırx sərkərdə birdən həlak olubdu!..
Qaladan kənarda, bir az aralı
Çaşır heyrətindən insan xəyalı!
«Qırxlar qəbristanı» bir nişanədir,
Bəlkə də, dünyada bircə dənədir!
Varlığı bir sirdir, bir möcüzədir,
Qiyamdır, üsyandır, mübarizədir!
İlahi, bu necə bir hekayətdir,
Bu necə qələbə, məğlubiyyətdir?!
Məğlub edə-edə düşmənlər səni
Necə basdırasan qırx sərkərdəni!
Elə şərafətlə basdırasah ki,
Elə məhəbbətlə basdırasan ki,
Mat qala yer üzü, dünya bu işə,
Adın əbədilik tarixə düşə!
Sən bu başdaşların qüdrətinə bax,
Bizim babaların qeyrətinə bax!
Sənət əsəridir hər bir başdaşı –
Torpağın vüqarı, xalqın yaddaşı!..
Qurban verilibsə qırx sərkərdə, bəs
Hardandır millətdə bu eşq, bu həvəs?
Demək, nahaq deyil mübarizəmiz,
Yaşamaq hüququ qazanmışıq biz!
Demək xalq yaşayır, millət yaşayır,
Millətin qanında qeypət yaşayır!

Demək, bu sınaqdan dərs almalıyıq,
Ayıq olmalıyıq, sərt olmalıyıq!..

Baxıram əyilmiş başdaşlara mən,
Xəcalət çəkirəm özüm-özümdən.
Biri saralıbdı, biri solubdu,
Biri böyrü üstə düşüb qalıbdı...
Burda sinə daşı qoparan da var,
Evinə «yadigar» aparan da var...

Bu da həqiqətin sərt üzü, qardaş,
Hamımız olmuşuq lal-kar, qara daş!
Bəlkə, əqidənin, inamın çiyi
Öyrədib bizə bu biganəliyi?..
Əlbəttə, yaddaşı xarab olan kəs
Sabahın eşqilə yaşaya bilməz!
Ümid rüzgardır, əsən rüzgara –
Təzə qan gətirə köhnə damara!..

Dərbənd, 1994

Azərbaycanın dilbər guşəsində - Qubada dünyaya göz açmış Tahir Saleh (Tahir Seydəli oğlu Hacəliyev) hazırda Dərbənddə yazıb –yaradır. Çelyabinsk Dövlət Mədəniyyət İnstututunu bitirib. Mahaçqalada Dağıstan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində çalışıb. Azərbaycan dili verilişləri redaksiyasının baş redaktoru olub. Dağıstan-Azərbaycan mədəni əlaqələrinin inkişafında böyük zənhməti vardır. «Qafqaz» jurnalının Dağıstan üzrə rəhbəridir.

Tahir Saleh «Gülüstan» ədəbi birliyinin sədridir. Öz şerləri ilə həm Dağıstanın, həm də Azərbaycanın mətbuat orqanlarında müntəzəm çıxış edir. «Dərbəndə gəl» kitabı onun öz oxucuları ilə ilk görüşüdür.

MÜNDƏRİCAT:

Ön söz----------------------------------------2
Narınqala-------------------------------------4
Dərbənd gözəli-----------------------------5
Səni min yaşa, Səid!----------------------6-8
Dərbəndə gəl--------------------------------9
Həqiqət-------------------------------------10
Fəxrəddin Qəribsəsə---------------------11-12
Qarabağ------------------------------------13
O müdhiş gecədən sonra...--------------14
Duya biləydim-----------------------------15
Sağlıq----------------------------------- ---16
Ana ömrü---------------------------------17
Anam--------------------------------------18
Anamın arzusu---------------------------19-20
Nə vaxtdır ki...------------------------------21
Istək----------------------------------------22
Bir qış günü---------------------------------23
Olmaz---------------------------------------24
Yox-----------------------------------------25
Arasında-----------------------------------26
Yaşım ötsə də...----------------------------27
Gözüm qaldı------------------------------28
Saçlarım ağarır...-------------------------29
Başa düşəndə-----------------------------30
Qəzəl--------------------------------------31
Gərək deyil dərman sənə----------------32

Bilmərəm-----------------------------------------33
Mənim eşqim-------------------------------------34
Təzə bəla-------------------------------------------35-36
Incimərəm-----------------------------------------37
Fraqmentlər---------------------------------------38-39
Duyğu yarpaqları--------------------------------40-44
Dördlüklər-----------------------------------------45-46
Dərbənd---------------------------------------------47-51

25 may 1995-ci il tarixli AA № 000058 lisenziyası ilə nəşriyyata buraxılmışdır.

TAHİR SALEH

DƏRBƏNDƏ GƏL
( Azərbaycan dilində)

Redaktor-korrektor - **Əhəd Muxtar.**
Texniki redaktor – **Aycahan Babaxanova.**
Rəssam – **Rizayev A. Ş.**

Yığılmağa verilmiş 27.02.1998-ci il.
Çapa imzalanmış 27.05.1998-ci il.
Kağız formatı 70x90 1/32. Şərt çap vərəqi 3,75. Uçot nəşriyyat vərəqi 0,82. Tirajı 500. Sifarişi 769.

Dağıstan Respublikası Dövlət Komitəsinin nəşr üzrə 3№-li çap mətbəəsi- 368600.

Dərbənd şəh, Kommunarov küç, 25.